# MƏDƏN SƏNAYESİNDƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ

*Sabit Bağırov,*
*İqtisadi və Siyasi Araşdırmalar Mərkəzi*

# Neftin iqtisadiyyatımızdakı çəkisi

| | 2004 | 2009 |
|---|---|---|
| Neftin hasilatı, mln.ton | 15 | 65 |
| Təbii qazın hasilatı, mlrd.kub metr | 6 | 14 |
| ÜDM-də pay | 40 % | 75 % |

# AZƏRI-ÇIRAQ-GUNƏŞLİ: NEFT HASİLATININ PROQNOZU



# “Ehtiyyatların lənəti”

Zəngin neft ehtiyyatları olan ölkələrin çoxuna neftdən əldə etdikləri gəlirləri vətəndaşların daha yaxşı yaşamalarına sərf etmək nəsib olmayıb.

Azerbaycan da belə ölkələrdən birimi olacaq?

# RİSK AMİLLƏRİ:

- Böyük gəlirlərin idarə edilməsi üzrə təcrübənin yoxluğu;
- Korrupsiyanın qarşısını alan mexanizmlərin zəif olması;
- Hökumətin fəaliyyətində şəffaflığın aşağı səviyyədə olması;
- Şirkətlərin fəaliyyətində şəffaflığın aşağı səviyyədə olması;
- neft gəlirləri üzərində monitorinq aparılması üçün vətəndaş cəmiyyətinin potensialının zəifliyi;
- müstəqil KİV-lərin zəifliyi;
- Zəif inkişaf etmiş demokratik ənənələr;
- ARDNŞ və HPBS arasında maraqlar konflikti;

# GƏLİR NÖVLƏRİ:

- Mənfəət nefti (ARDNF);
- Səmt qazı (ARDNŞ);
- Bonuslar (ARDNF);
- Akrhesabı ödənişlər (ARDNF);
- Vergilər (Dövlət Büdcəsi);
- İcarə haqqı (ARDNF və digər dövlət müəssisələri);
- Sosial Vergilər (Dövlət Sosial Müdafiə Fondu);
- Gəlir vergisi (Dövlət Büdcəsi);
- Transit Tarifləri (ARDNF);

# Azərbaycanda neft gəlirləri kimə çatır?

- Dövlət Neft Fondu;
- Dövlət Büdcəsi;
- Social Müdafiə Fondu;
- Dövlət müəssisələri;
- Özəl müəssisələr;
- Banklar;
- Vətəndaşlar;

# HASİLATIN PAY BÖLGÜSÜ



# MƏNFƏƏT NEFTİNİN PROQNOZU

Proqnozlaşdırma problemləri:

- hasilatın dinamikasının dəyişgənliyi;
- xam neftin qiymətlərinin dəyişgənliyi;
- istismar xərcləri dinamika;
- kapital xərclərinin dinamikası;

# AZƏRBAYCANIN PAYINA DÜŞƏN MƏNFƏƏT NEFTİNİN PROQNOZU



# CUMMULYATIV (TOPLAM) AZƏRBAYCANIN MƏNFƏƏT NEFTİ



# AÇG: DÖVLƏT BUDCƏSİ GƏLİRLƏRİ, mln. USD



# AÇG: ARDNŞ-nin MƏNFƏƏT NEFTİ



# ACG: AZƏRBAYCAN GƏLİRLƏRİNİN PROQNOZU

| | Dövlət büdcəsi | | ARDNF | | Sosial | ARDNŞ | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | min | max | min | max | Fond | min | max | min | max |
| **2005** | 15 | 35 | 216 | 578 | 20 | 50 | 135 | **301** | **768** |
| **2008** | 257 | 690 | 1550 | 4165 | 21 | 127 | 341 | **1955** | **5217** |
| **2010** | 330 | 788 | 1991 | 15569 | 17 | 163 | 389 | **2501** | **16763** |
| **2012** | 564 | 674 | 3405 | 13309 | 15 | 279 | 333 | **4263** | **14331** |
| **2015** | 383 | 458 | 2313 | 9040 | 15 | 189 | 226 | **2900** | **9739** |
| **2018** | 253 | 302 | 1526 | 5965 | 14 | 125 | 149 | **1918** | **6430** |
| **2020** | 181 | 216 | 1092 | 4269 | 14 | 89 | 107 | **1376** | **4606** |
| **2022** | 136 | 162 | 819 | 3203 | 13 | 67 | 80 | **1035** | **3458** |
| **2025** | 101 | 120 | 607 | 2374 | 10 | 50 | 59 | **767** | **2564** |
| **2029** | 44 | 52 | 264 | 1032 | 5 | 22 | 26 | **334** | **1115** |
| | **5942** | **8847** | **35362** | **139917** | **374** | **2977** | **4486** | **44655** | **153624** |



**EITI** (**E**xtractive **I**ndustry **T**ransparency **I**nitiative - Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü) 2002-ci ilin sentyabr ayında İohannesburg şəhərində keçirilmiş Davamlı İnkişaf üzrə Dünya Samitində Böyük Britaniyanın Baş Naziri Tony Bleyr tərəfindən irəli sürülmüşdür. Məqsəd təbii ehtiyatlarından son dərəcə asılı ölkələrin mədən sənayesində ödəmələr və gəlirlər üzərində şəffaflığın artırılmasıdır.

# EITI AZƏRBAYCANDA: VACİB HADİSƏLƏRİN XRONOLOJİSİ

- 17 iyun, 2003: Cənab Ilham Aliyev Azərbaycanın EITI-ya qoşulmasını bəyan edir.
- 13 Noyabr, 2003: Nazirlər Kabinetinin qərarı ilə Hökumət Komissiyası yaradılır.
- 13 May, 2004: Azərbaycan QHT-lərinin Koalisiyası yaradılır
- 24 Noyabr, 2004: EITI-yın Azərbaycanda tətbiqi üzrə Anlaşma Memorandumu imzalanır

“Mineral Ehtiyatların Hasilatı ilə Məşqul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycan Respublikasında tətbiqinə dair qarşılıqlı anlaşma haqqında”

# MEMORANDUM

**Memorandumun məqsədi:**

***MHŞT-nin Azərbaycanda tətbiqi mexanizmini reallaşdırmaq***

# Memorandumun tərəfləri:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 noyabr 2003-cü il tarixli sərəncamına əsasən yaradılmış MHŞT üzrə Komissiya (**1-ci Tərəf**),

2. Azərbaycan Respublikasının hasilat sənayesində (neft və qaz hasilatı) fəaliyyət göstərən yerli və xarici şirkətlər (**2-ci Tərəf**),

3. Azərbaycan Respublikası "Mədən Sənayesində Şəffaflığın Artırılması" Koalisiyasına daxil olan qeyri-hökumət təşkilatları (QHT-lər), (**3-cü Tərəf**)

# Memorandum preambulu

a) Azərbaycan Respublikası Hökumətinin mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrində səffaflığın artırılması üçün atdığı addımları, o cümlədən Beynəlxalq Şəfafflıq Təşəbbüsünə qoşulduğunu və Təşəbbüs üzrə pilot ölkə olmaq kimi məsul vəzifəni öz üzərinə götürdüyünü alqışlayaraq,

b) Azərbaycan Respublikasının neft və qaz hasilatı sənayesində fəaliyyət göstərən yerli və xarici şirkətlərin Azərbaycan Respublikası hökuməti tərəfindən MHŞT çərçivəsində ölkə hökumətinə etdiyi ödənişlər barədə hesabatları təqdim etməyə cəlb olunmasını yüksək qiymətləndirərək,

c) Azərbaycandakı qeyri-hökumət təşkilatlarının və vətəndaş cəmiyyətinin MHŞT-nin gerçəkləşməsi prosesində rolunu tanıyaraq

# Hesabat formaları:

Hesabat Forması № 1 - Hökumət Komissiyası tərəfindən verilir;

Hesabat Forması № 2 - xirici şirkətlər tərəfindən təqdim edilir;

Hesabat Forması № 3 - yerli şirkətlər verir.

# Hesabatların müddətləri

Hesabatlar ildə 2 dəfə verilir:

- illik hesabatlar mart ayının 15-də

və

- yarımillik hesabatlar avqust ayının 15-də

# Hesabat formalarının və müddətlərin dəyişməsi

Hesabat formalarına və onların təqdim olunması müddətlərinə Tərəflərin qarşılıqlı razılaşmaları əsasında dəyişikliklərin edillməsi istisna olunmur. Tərəflərdən hər birinin bu cür dəyişikliklər barədə təklif vermək hüququ var və Memorandumun digər tərəfləri bu təklifləri birgə müzakirə edəcəklər.

# Hesabatların auditi

MHŞT üzrə Komissiyanın və xarici və yerli şirkətlərin təqdim edəcəyi hesabatların təhlil edilərək tutuşdurulması və hesabatlara dair rəy verilməsi Azərbaycanda fəaliyyət göstərən beynəlxalq nüfuza malik audit şirkətlərinə həvalə ediləcək.

# Audit şirkəti

Audit şirkətinin müsabiqə yolu ilə seçilməsi məqsədilə bu Memorandum üzrə tərəflər Seçim Qrupunu təsis edəcəklər. Tərəflər Seçim Qrupuna hər tərəfdən iki  nəfər təhkim edəcəklər. Tərəflərin hər birini təmsil edən şəxslərin hər biri bir səs hüququna malik olacaqlar. Seçim Qrupunun Fəaliyyət Dairəsi üzrə Prosedur Qaydaları və Audit Şirkətinin Şeçilməsi Meyarları Memoranduma əlavə edilir.

Audit şirkətilə MHŞT üzrə Komissiya arasında müvafiq xidmətlərin göstərilməsi barədə müqavilə imzalanır. Bu müqavilənin surəti digər Memorandum tərəflərinə də təqdim olunur.

Memorandumun tərəfləri Seçim Qrupundakı nümayəndələrini dəyişmək hüququna malikdir.

Audit şirkəti hər hesabat dövrü üçün yenidən seçilir.

Audit şirkətinin xidmət haqlarının üdənilməsi mexanizmi Memoranduma tərəflərin hamısı və yaxud Komissiya və şirkətlər arasında razılaşdırılır və mğəyyənləşdirilir.

# Auditin keçirilməsi

1. Hökumət Komissiyası yerli və xarici şirkətlərə doldurulmuş hesabatların müəyyən edilmiş hesabat tarixinədək birbaşa audit şirkətinə təqdim edilməsinə dair göstəriş verir

2. Hökumətin hesabatı MHŞT üzrə Komissiya tərəfindən audit şirkətinə təqdim olunur.

3. Xarici və yerli şirkətlərdən alınmış hesabatların surəti audit şirkəti tərəfindən MHŞT üzrə Komissiyaya göndərilir.Bu zaman MHŞT üzrə Komissiyanın hesabatı artıq audit şirkətinə təqdim edilmiş olmalıdır.

4. Audit şirkəti hökumətin və xarici və yerli şirkətlərin hesabatlarını təhlil edərək tutuşdurur və bunun əsasında öz rəyini hökumətin hesabatı ilə birgə Memorandum tərəflərinin toplantısında açıqlayır.

5. Memoranduma tərəflər MHŞT üzrə Komissiyanın hesabatı və auditin nəticələrilə bağlı mətbuat üzün birgə məlumat hazırlayıb onu dərc etdirir.

# Şirkətlərin hesabatlarının məxfiliyi

Audit şirkəti və Komissiya xarici və yerli şirkətlər tərəfindən təqdim olunmuş hesabatların məxfiliyinə cavabdehdirlər və bu hesabatları tam və yaxud qismən bu Memorandumun digər tərəflərinə, hər hansı üzüncü tərəfə açıqlamayacaqlar.

Tərəflər ilk hesabatların dərc edilməsindən sonra xüsusi müzakirəyə ehtiyacı nəzərə alaraq əlavə toplantılar keçirəcəklər. 2003-cü il və 2004-cü ilin 6 ayını əhatə edən hesabatlar təqdim olunduqdan sonra şirkətlərin fərdi hesabatlarının açıqlanması məsələsi yenidən müzakirə oluna bilər.

# Hesabatın başlanması ilə əlaqədar Memorandumda xüsusi qeydlər

Tərəflər hesabatların təqdim olunacağı ilk mərhələdə ləngimə, catışmazlıq, texniki qüsurların olmasını istisna etmir və bunların xoş məramla audit şirkətilə əməkdaşlıq nəticəsində aradan qaldırılması zərurətini qəbul edirlər

Tərəflər ilk hesabatların 2003-cü il və 2004-cü ilin ilk 6 ayını əhatə edəcəyinə razıdırlar. Hesabatların ilk dəfə təqdim olunduğu nəzərə alınaraq onun tarixi tərəflər arasında (bu Memorandum imzalandıqdan sonra 30 gün ərzində) xüsusi olaraq müəyyənləşdiriləcəkdir.

# Sənədlərin arxivləşdirilməsi

Memorandumun imzalanmış nüsxəsi MHŞT üzrə Komissiya tərəfindən Azərbaycan Respublikası Dövlət Neft Fondunda saxlanılır. Onun surətləri Memorandum tərəflərinə təqdim olunur. Memorandum üzrə hazırlanmış hesabat formaları, Seçim Qrupunun sənədləri və bu Memorandumun həyata keçirilməsi ilə əlaqədar digər sənədlər ARDNF-də saxlanılır və arxivləşdirilir.

# Memorandumun qüvvəyə minməsi

Memorandum bütün tərəflər arasında imzalandığı gündən qüvvəyə minir.

# EİTİ prosesinin Azərbaycandakı ilk mərhələdə təmin etdiyi qazanclar:

1. İctimaiyyət mütəmadi şəkildə, ildə iki dəfə, Azərbaycan Dövlət Neft Fonduna (Azərbaycanın mənfəət neftindəki payı və şirkətlərin ödənişləri olaraq) və Dövlət Büdcəsinə daxilolmalar barədə məlumat əldə edir;

2. Vətəndaş cəmiyyəti təmsilçiləri (Koalisiya) EİTİ prosesinin iştirakçısı olur və bu prosesə təsir etmək imkanını əldə edir;

# Xarici şirkətlərin hesabatı

1. Hökumətə ödəmələr/ayırmalar:
   - 1a) Hökumətin payı (mənfəət neftində)
   - 1b) Ödəmələr:
     - Royalti
     - Mənfəət vergisi
     - Digər vergilər (excluding employee income taxes, Social Protection Fund taxes, withholding taxes)
     - Dividendlər
     - bonuslar
     - Lisenziya haqqı
     - Digər ödənişlər

2. Dövlət şirkətinə ödəmələr/ayırmalar

# QHT-lər Koalisiyasının təklifləri

Şəffaflığın artırılması məqsədilə Koalisiya təklif edir ki:

- Şirkətlərin hesabatları fərdi şəkildə açıqlansın;
- ARDNŞ-nin Əsrin müqaviləsi üzrə xarici şirkətlərə borcu açıqlansın;
- Şirkətlərin Sosial Müdafiə Fonduna ödəmələri açıqlansın;
- Bir sıra digər məlumatlar da hesabatlarda öz əksini tapsın.

İmzalanmış Memorandumun şərtlərinə əsasən Tərəflər Koalisiyanın təkliflərini müzakirə edəcəklər

# KOALİSİYANIN 2005-ci il üçün İŞ PLANI

- "Azərbaycan mədən sənayesində şəffaflıq problemləri" kitabın nəşri, təqdimatı və yayımlanması;
- "Şəffaflığa dair İFC-nin yeni siyasəti"nə dair təkliflərin verilməsi;
- Müxtəlif mövzularda 10 dəyirmi masaların keçirilməsi ;
- Şura üzvləri üçün xüsusi treninq.
- Mətbuat konfranslarının keçirilməsi;
- "Mədən sənayesi üzərində ictimai nəzarət" kitabın nəşri, təqdimatı və yayımlanması;
- QHT-lər üçün xüsusi treninqlər. Mövzu: " EITI prinsipləri və neft kontraktlarının özəllikləri".

# KOALİSİYANIN 2005-ci il üçün İŞ PLANI

- EITI mövzularında jurnalistlər üçün müsabiqənin keçirilməsi
- Regionlarda EITI mövzularına həsr edilmiş dəyirmi masaların keçirilməsi
- KİV-lər üçün xüsusi treninqlər. Mövzu: "Neft kontraktlarının özəllikləri". 20 KİV nümayəndəsi
- "Mədən sənayesində şəffaflıq problemləri" mövzusunda beynəlxalq konfransın keçirilməsi
- MSŞAK-nın 2 ümumi yığıncağının hazırlanması və keçirilməsi
- Koalisiya sıralarının genişləndirilməsi

# TƏŞƏKKÜRLƏR